## Ayrı-seçkiliyə/diskriminasiyaya dair ssenarilər

**Aşağıdakı hal diskriminasiya xarakteri daşıyırmı?**

### 1-ci hal

Zurab əczaçıdır. 1971-ci ildən o, öz ölkəsində məhkəmə iclasçıları siyahısına salınmışdır və ən azı 2002-ci ilə qədər siyahıda qalmışdır. 1971 və 1997-ci illər arasında məhkəmə iclasçısı kimi üç müxtəlif qrup cinayət prosesslərində iştirak etmişdir. 1997, 2002 və 2005-ci illərdə, o yenidən məhkəmə iclasçısı olmağa çağırılmış, lakin iştirak etmədiyi üçün təxminən € 240 cərimə edilmişdir. Ərizəçi cəriməni ödəmədiyi üçün Cinayət Məhkəməsini çağırılmışdır. O, etiraz edərək bildirmişdir ki, ona kəsilən cərimə Konstitusiyanın 45-ci Maddəsi və Konvensiyanın 14-cü və həmçinin, 4-cü Maddəsinin § 3 (d) əsasən diskriminasiya xarakteri daşıyır, çünki onun vəziyyətində olan digər şəxslər münsiflər məhkəməsi xidmətinin və qanunun yükünə və rüsumlarına məruz qalmamışlar və daxili təcrübədə qadınlar de-fakto olaraq münsiflər məhkəməsi xidmətlərindən azad olunmuşlar, kişilər isə yox. O, vurğulamışdır ki, münsiflər məhkəməsi xidməti yükdür, çünki məhkəmə iclasçısı məhkəmə dinləmələrində iştirak etmək üçün mütəmadi olaraq öz işlini tərk etməlidir. İnsanın təqsirsiz və ya təqsirli olmasına hökm vermək həm də mənəvi yükdür. Onun bütün müraciətləri rədd edilmişdir.

**Bu halı olduğu kimi müzakirə edin. Müzakriədən sonra aşağıdakı suallara cavab verin:**
Əgər Siz əvvəlki beş ildə 96.95% kişidən fərqli olaraq yalnız 3.05% qadın məhkəmə iclasçısı kimi xidmət etdiyini və 1997-ci ildə məhkəmə iclasçıları seçicilərin yalnız 3.4%-ni təmsil etdiyini bilsəydiniz Sizin cavab dəyişərdimi?

### 2-ci hal

Keyti və Lusiya vətəndaş nigahına daxil olmuş və uşaq istədiklərinə qərar vermişlər. M ştatında eyni cinsli cütlüyin övladlığa üşaq götürməsi qeyri qanuni, ancaq bir nəfərin övladlığa üşaq götürməsi qanunidir. Keyti övladlığa üşaq götürməsi icazəsi üçün müraciət edir. Proseslər zamanı o, Lusiya ilə öz uzunmüddətli münasibətləri haqqında danışır və onun da övladlığa üşaq götürmək qərarını tam dəstəklədiyini bildirir. Ərizə rədd edilir , çünki M ştatının övladlığa götürmə ilə bağlı orqanlarına görə: "Keytinin cavabdeh və sevən valideyn olmaq üçün lazım olan bacarıqları olmasına və onun qərarını partnyorunun da dəstəkləməsinə baxmayaraq, orqanlar uşağın ənənəvi ailəyə müsaid olmayan mühitdə böyüməsi ilə əlaqədar ehtiyac içində olacağından narahat olurlar. Övladlığa götürülmüş uşaq təcriddən əziyyət çəkir, çünki o, əksər hallarda normal ailədə böyüyən uşaqlardan fərqli olaraq yad olacaq". Keyti bu qərara qarşı apellyasiya iddiası irəli sürür və iddia rədd edilərək qərarın arqumentləri qüvvədə saxlanılır.
Keyti uşağı olması və ailə qurması layiəsində ayrı-seçkiliklə üzləşirmi?

### 3-cü hal

Corc dini qrupun üzvüdür və bu səbəbdən məcburi hərbi xidmətdən imtina etmişdir. Buna görə də o, itaətsizliyə görə məhkum olunmuş və həbs cəzası almışdır. Cinayət ağır cinayətlər kateqoriyasına düşmüşdürBir neçə il sonra, sertifikatlaşdırmış mühasib peşəsinə yiyələnməyi imkan yaradan dövlət imtahanını verdikdən sonra, onun təyinatı qəbul edilməməişdir. Bu, namizədin ağır cinayətdə məhkumluğunun olmaması bir şərt olduğu səbəbindən baş vermişdir.
Bu işin faktları diskriminasiya xarakterli davranışa işarə edirmi?

### 4-cü hal

Piter öz partnyoru ilə dörd il yaşamış və həbsindən əvvəl onların bir uşaqları olmuşdur. Onun həbsi müddətində, onun xanımı ilə ancaq 5 həftədən bir telefonla danışmağa icəzəsi olur, amma evil məhbuslar ayda iki dəfə öz həyat yoldaşları ilə danışa bilirlər.
Bu işin faktı diskriminasiya xarakterli davranışa işarə edirmi?

**5-ci hal**

Liberti Fil dişi Sahilinin vətəndaşıdır. O, İtaliyada yaşayır və orada çox illər yaşamışdır. Bu illər ərzində o, işsizlik və üşaq müavinatları kimi sosial xidmətlərdən faydalanmışdır. Onun əlilliyi olanlar üçün ödənilən müavinətə müraciəti təmin edilməmişdir və səbəb kimi onun yalnız italyan vətəndaşları və ya İtaliyanın qarşılıqlı sosial təhlükəsizlik razılaşması olduğu ölkələrin vətəndaşları üçün olduğu göstərilmişdir.

Liberti ayrı-seçkiliyin qurbanıdırmı?

**6-cı hal**

Con diabet xəstəsidir. O, Yunanıstanda yaşayır. Milli qanunvericiliyə əsasən diabet yüngül əlillik hesab edilir. Bu tibbi vəziyətinə görə onun hərbi xidmətə yararsız olduğu bildirilmişdir. Ancaq onun əlilliyi '40%' həddinə çatmadığından (bir əzanın funksiyasının itirilməsinə bərabər hesab edilir) o, könüllü olaraq hərbi xidməti yerinə yetirməyənlər kimi, hərbi xidməti keçmədiyi üçün vergi ödəməli idi. O, xidmətdən imtina etməmişdir və ona görə də mümkün alternativ xidməti qəbul emək istəmir.

Con diskriminasiya qurbanıdırmı?

**7-ci hal**

Loris Qana vətəndaşıdır. O, 2003-cü ildən bolqariya vətəndaşı ilə evləndikdən sonra Bolqariyada yaşayır. 2004-cü ildə onların bir uşaqları dünyaya gəlmişdir. Loris Bolqariya vətəndaşlığını ala bilərdi, lakin o, Qana vətəndaşlığından imtina etmək istəmir. Loris yaşamaq üçün icazəyə müraciət etmiş və onun tibbi müayinə keçməsi tələb olunmuşdur ki, müayinə İİV müsbət nəticə vermişdir. Onun yaşamaq üçün icazəmüraciəti rədd edilmişdir vəsəbəbdə İİV müsbət statuslu xarici vətəndaşlarına yaşamaq icazəsinnin verilməsinin qarşısını alan qanun maddələrinə istinad edilmişdir. O, məhkəmədə bu imtinaya öz etirazını bildirmiş, ancaq bütün müraciətləri uğursuz olmuşdur.

Yaşamaq icazəsinnin verilməməsi diskriminasiya xarakterli davranış sayıla bilərmi?

*Hazırladı: İvana Roagna*